**S Ə N Ə T Ş Ü N A S L I Q**

**UOT 792.03**
**https://doi.org/10.59849/2311-8482.2025.3.141**

**ƏLİ QƏHRƏMANOV**

# ƏMƏKDAR RƏSSAM MƏMMƏDƏLİ İSMAYILOVUN RƏNGLƏR DÜNYASINA ELMİ-NƏZƏRİ BAXIŞ

*Məqalədə XX əsrdə realist rəssam Bəhruz Kəngərlinin istedadlı davamçılarından biri, respublikanın əməkdar rəssamı Məmmədəli İsmayılovun yaradıcılıq yolundan bəhs olunur. Onun Naxçıvan teatrında klassik və müasir əsərlərə bədii tərtibat verdiyi tamaşalar xronoloji ardıcıllıqla izlənilir. Həmçinin Vətənimizin əsrarəngiz gözəlliyini vəsf edən mənzərə və bir-birindən baxımlı boyakarlıq tablolarından söhbət açılır. Eyni zamanda beynəlxalq sərgilərdə müvəffəqiyyətlə iştirakı əks olunur.*

***Açar sözlər:*** *Məmmədəli İsmayılov, rəssam, teatr, mənzərə, kompozisiya, portret.*

## Giriş

Yaradıcılığının böyük bir hissəsini Naxçıvana həsr edən, onun tarixini, təbiətini, gözəlliklərini, zəhmətkeş insanların arzu və istəklərini əsərlərində əks etdirən rəssamlardan biri də Azərbaycan Respublikasının Əməkdar rəssamı İsmayılov Məmmədəli Namazəli oğludur.

Məmmədəli Namazəli oğlu İsmayılov 20 iyul 1933-cü ildə Ordubad rayonunda kasıb, zəhmətkeş bir ailədə dünyaya göz açır. Həyatı çətinliklərlə keçən Namazəli kişi dövrün, zamanın gərdişinə boyun əyərək ömrünü min bir əziyyətlərlə qatlaşaraq övladlarına böyüdür. Kiçik yaşlarından sakit, qaradinməzliyi ilə bacı-qardaşlarından seçilən Məmmədəli rəssam olmaq, həyatını min bir rəngə çalan əlvan rənglərlə boyamaq arzusu ilə yaşayardı. Elə bu arzu onu illər sonra 1959-cu ildə Bakı şəhərinə, Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə aparır. Kasıb kənd həyatında böyüsə də, daxilən zəngin, Vətəninə, elinə bağlı olan gənc elə ilk günlərdən illərlə ürəyində gəzdirdiyi arzularının bir addımlığında dayandığını anlayaraq var qüvvəsi ilə bu sənətin dərinliklərinə baş vurur. Burada xalq rəssamı Böyükağa Mirzəzadə, Vacihə Səmədova kimi sənət korifeylərindən sevib-seçdiyi sənətin incəliklərinə yiyələnir. Qısa bir müddətdə müəllimlərinin hörmətini qazanan Məmmədəli İsmayılov 1964-cü ildə texnikumu əla qiymətlərlə başa vuraraq doğma yurduna qayıdır.

**Naxçıvan teatrında.** Gənc Məhəmmədəli C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrında quruluşçu rəssam kimi işə başlayır. İlk dəfə İsa Musayevin quruluşunda V.Qubaryovun “Adada üç nəfər” povesti əsasında Kərəm Həsənovun səhnələşdirdiyi “Sehirli yaylıq” tamaşasına bədii quruluş verir. Tamaşa 1965-ci ilin 15 aprelində teatrsevərlərə göstərilir [4, s. 298]. Daha sonra Baxşı Qələndərlinin quruluşunda Məhərrəm Əlizadənin “İki könül bir olsa” (1966, 12 aprel), Cəlal Məmmədovun “Dan ulduzu” (1967, 14 yanvar), Süleyman Rəşdinin “Mən onu axtarıram” (1967, 28 fevral), Adil Babayevin böyük rəssam Bəhruz Kəngərlinin həyatından bəhs edən “Yarımçıq şəkil” (1968, 24 may), Əliyar Yusiflinin “Səadət naminə” (“Oğurlanmış məhəbbət”, 1969, 31 yanvar), Aleksandr Şirvanzadənin “Nakam qız” (1970, 27 dekabr), İldırım Cabbarovun quruluşunda Həsən Elsevərin “Vüqarlı gözəl” (1966, 8 may), Vəli Babayevin quruluşunda M.F.Axundovun “Müsyo Jordan və dərviş Məstəli şah” (1968, 25 dekabr), şair, dramaturq Ramiq Muxtarovun quruluşunda Xanımana Əlibəylinin “Dovşanın ad günü” (1971, 13 mart), İbrahim Həmzəyevin quruluşunda Əfqan Əsgərovun “Qız atası” (1973, 4 iyun) əsərlərinin tamaşalarına bədii quruluş verir [3, s. 533-579].

Naxçıvanda yaşadığı müddətdə Məhəmmədəli İsmayılovun yaradıcılığında teatr tamaşalarına verdiyi bədii quruluşlarla yanaşı, tükənməz enerji ilə ərsəyə gətirdiyi təsviri sənətin müxtəlif növlərinə aid əsərlər rəngkarlıq nümunələri kimi mühüm yer tutur. Məhəmmədəli əsasən mənzərəçi rəssam kimi tanınsa da digər janrlarda çəkdiyi əsrarəngiz əsərləri ilə Azərbaycan rəssamlıq tarixində özünəməxsusluğu, təsvir dilinin sadəliyi, emosionallığı ilə seçilnişdir. Böyük bacarıqla tematik janrda işləyən rəssamın, mənzərə, natürmort, portret, mənzərə janrlarında fırçasından çıxan çoxsaylı əsərlər qədim Azərbaycan torpağının gözəllikləri əks olunur.

**Rəssamın yaradıcılığında Vətən məhəbbəti sevgisi**. Məmmədəli İsmayılov yaradıcılığında Naxçıvan diyarının mənzərələrinin təsvirinə geniş yer vermiş rəssamlarımızdandır. Naxçıvanın əsrarəngiz gözəlliklərini kətana köçürən rəssam bu torpağın tükənməz nemətlərini, tarixi abidələrini, quruculuq işlərini mövzu etibarı ilə əsas tutmuşdur. Onun "Dədə-baba yurduna aparan yollar", "Sirab gölü", "Vayxır", "Yuva", "Qoruq", "Payız", "Şum", "Bahar", "Əlincə qalası-yenilməzlik simvolu", "Mərdlik rəmzi-Haça dağ", "Köhnə Naxçıvan", "Araz-ümümxalq dərdi, ürək yarasıdır", "Arazda qürub", "Şahbuz yolları", "Xal-xal", "Uzunoba", "Araz", "Badamlı dağları", "Ballı qaya", "Kültəpə", "Batabat", "İlanlı dağ", "Bahar", "Dağ gölü", "Payız", "Yağışdan sonra", "Əshabi-kəhv", "Sirab dağı" adlı mənzərələri, "Ana", "Davamçı", "Hüseyn Cavid", "Koroğlu" kimi portretləri, "Cəmşid Naxçıvanski Moskvada", "Tapşırıq", "Düşüncələr", "Şeyx Sənan", "Cəlil düşünərkən", "Nəhayətsiz ana məhəbbəti", "Doğma ocaq", "İnsanın ümumbəşəri hissi olan sülh" mövzularında olan tematik kompozisiyaları və digərı əsərləri daha çox diqqəti cəlb edir.

Rəng, forma, məzmun, kolorit, işıq-kölgə və başqa ifadə vasitələrindən düzgün, yerli-yerində istifadə etməklə rəssam bir-birindən fərqli, dəyərli, mükəmməl sənət əsərləri yaratmışdır. Onun "Payız", "Yol ayrıcında", "Qoruqlar', "Şum", "Bahar" əsərlərində klassik Azərbaycan miniatür sənətinin inciləri duyulur. "Vəhşilərin əməli", "Mən insanam", "Qanlı torpaq"əsərlərində isə dünyada baş verən siyasi hadisələrə, erməni qəsbkarlarına qarşı münasibətini bildirərək hər bir Vətən övladını öz torpağı, milləti, xalqı uğrunda mübarizəyə səsləyir. Geniş yaradıcılıq diapazonuna malik, milli adət-ənənələrimizi, dəyərlərimizi qoruyan, insan və təbiəti həmişə vəhdətdə təsvir edən Məmmədəli İsmayılov əsərlərində göy, bənövşəyi, firuzəyi, yaşıl rənglərə üstünlük verərək canlılıq, təbiətə yaxınlıq eyni zamanda göz oxşayan harmoniya yaradırdı.

Yaradıcılığının əsas mövzusu, qayəsi Vətən sevgisi, ana təbiətə bağlılıq olan rəssamın böyük sevgi və məhəbbətlə, eyni zamanda heyranlıqla vəsf etdiyi mənzərə tablolarında sanki bulaqların həzin şırıltısı, saralmış yarpaqların asta pıçıltısı, güllərin-çiçəklərin xoş ətri duyulur.

Gördüklərini kətan üzərində ustalıqla əks etdirmək bacarığı ona Tanrı vergisi idi. Sevən ürəyi və bir də doğma torpağının gözəl təbiəti rəssamın hər bir əsərinə həyat bəxş edir, estetik gözəllik yaradırdı. Vətənimizin gözəlliyi, torpağı rəssamın yaradıcılığında bütün əlvanlığı, gözəlliyi ilə tərənnüm olunur, təbiətin bu lətif gözəlliyi, insanların torpağa bağlılığı, onu əkib-becərmək, qurub-yaratmaq istəyi rəssama ilham verir, bir-birindən gözəl sənət lövhələri yaratmağa ruhlandırırdı. "Xalxal", "Batabat", "Kültəpə", "Uzunoba", "İlanlıdağ", "Badamlı dağları" əsərlərində güllü-çiçəkli çəmənləri, axarlı-baxarlı kəndləri, bərəkətli çölləri, vüqarlı dağları özünəməxsus tərzdə vəsf edən rəssam "Tarladan gələn qızlar", "Gərgin əməkdən sonra", "Sağıcı qız", "Dəyirman kombinatı"nda isə insan həyatının ayrılmaz hissəsi olan, ona şan-şöhrət gətirən, onu ucaldan əməklə qazanılan çörəyin müqəddəsliyini, halallığını tamaşaçısına ustalıqla çatdıra bilmişdir. "Onun təbiətin fonunda təsvir etdiyi fiqurlu kompozisiyaları da çox maraqlıdır. Onun "Vayxır", "Yuva", "Qoruq", "Sirab gölü", "Payız", "Şum", "Bahar" [2, s. 6]. Rəssamın yaradıcılığında "Qanlı torpaq", "Vəhşilərin əməli" və başqa əsərləri də bu qəbildəndir.

Rəssamın yaradıcılığında Naxçıvanın tarixi-memarlıq abidələri də yer almışdır. O, zaman-zaman yadelli işğalçıların basqınına məruz qalan, lakin əyilməyən, Əmir Teymuru belə heyrətləndirən alınmaz "Əlincə qalası" əsərində o vüqarı, o əzəməti çox böyük qürurla, fəxrlə təsvir etmişdir. Onun yağlı boyalarla çəkdiyi "Qarabağlar türbəsi" rəng koloriti və kompozisiya baxımından maraqlıdı. Ümumiyyətlə, yaradıcılığında geniş yer alan qızılı, sarı, qəhvəyi rəng tonlar rəssamın bu əsərində daha qabarıq hiss olunur. Qarabağlar türbəsi önündə Qoşaminarə türbəsi də təsvir olunmuşdu. Ön planda iki ağac və türbələrin qarşısında kəsişən, sonsuzluğa uzanan yollar kompozisiyanı daha maraqlı etmişdir. Digər əsərlərində olduğu kimi bu əsrində də nikbin notlar hiss olunur. Onun yaratdığı mənzərələrdə lirik hisslər ön plandadır. Rəng əlvanlığının ön planda olduğu bu tablolar impressionizm üslubunu xatırladır.

Əməkdar rəssam Məmmədəli İsmayılov çağdaş Azərbaycan təsviri sənətində öz dəst-xətti, özünəməxsus yaradıcılığı olan, öz daxili aləmini, gözəllik duyğularını sarıldığı fırçası ilə ifadə edən, gördüklərindən, təbiətin möcüzələrindən heyrətlənən, eyni zamanda çəkdikləri ilə də öz tamaşaçısını heyrətləndirməyi bacaran sənətkar idi. Xalq rəssamı Mikayıl Abdullayevin fərdi təsvir manerası ilə Səttar Bəhlulzadəni xatırladan Məmmədəli İsmayılovun yaradıcılığı ilə yaxından tanış

olduqdan sonra "Səttar dirilib ki…, Bu Səttar Bəhlulzadə deyil, onun kimi təbiət aşiqi olan Məmmədəlidir, sənətin ikinci Səttarıdır" – deməsi onun sözün əsl mənasında istedadlı, güclü rəng duyumu, geniş dünyagörüşü, yaradıcılıq axtarışları, tapıntıları, rənglərdə duyulan ürək çırpıntıları ilə zəngin bir rəssam olduğunu təsdiqləyir [5].

Rəssamın çəkdiyi mənzərələrlə doğma yurdun seyrinə çıxmaq, bu yerlərə bələd olmayan insanlara bələdçilik etmək də olar. Vətəninin torpağına, daşına əsərlərində həyat bəxş edən, yaşamaq vəsiqəsi verən rəssam üçün bu yerlərin təbiəti tükənməz ilham mənbəyi, mövzu çeşməsidir. Təkcə doğma diyarının təbiətini deyil, onun ölməz sənət incilərini, tarixi abidələrini öz fırçasında yaşadan, muxtar respublikada gedən quruculuq işlərini yaradıcılığının əsas mövzularından biri hesab edən rəssam "Beton zavodu", "Vayxır", "Yuva", "Sirab gölü", "Çoban" kimi əsərlərində əməyin romantikasını bütün parlaqlığı ilə tərənnüm etmişdir.

Naxçıvanın dilbər guşələrini, təbiətinin özünəməxsusluğunu, bərəkətli torpaqlarımızın yetirdiyi bol nemətləri, qədim diyarın tarixi və əski mənzərələrini məharətlə vəsf edən rəssam yaradıcılığında natürmort janrı ilə yeni bir zirvəni fəth edir. Onun "Nənəmin süfrəsi" əsəri bunun bariz nümunəsidir.

**Rəssam Bakı şəhərində.** Məhəmmədəli İsmayılov Bakıya köçəndən sonra da orada rəssamlıq fəaliyyətini davam etdirir. Rəssam rəngkarlığın bütün janrlarına müraciət etmişdir. Lakin tematik tablo və mənzərə janrında yaratdığı əsərlər mövzu və üslub baxımında daha maraqlı və sayca üstünlük təşkil edir. Heç bir yaradıcı şəxs həyatı nə qədər kədərli notlarla dolu olsa da, o bədbin ruhlu ola bilməz. Çünki o yaradır, yaratdıqları ilə insanlara duyğular bəxş edir. Onun əsərlərinə baxdıqda insanı nikbin əhval ruhiyyə, sevinc, gələcəyə inam hissi bürüyür. Bu bir tərəfdən onun xarakterindən gələn xüsusiyyətlərdir ki, bu da onun üstünlük verdiyi əlvan rənglərlə, işləmə texnikası ilə əsərlərində əks olunur. Digər tərəfdən isə doğma yurda bağlılıqdır. Təbiətdən aldığı təssüratın ifadəsidir ki, bu da onun əsərlərini bizə doğma edir, bizə isti nəfəs gətirir.

Daxili mədəniyyətə, sərrast gözə, dəyərləndirmək bacarığına, yüksək yumor hissinə, özünəməxsus düşüncə tərzinə, yüksək intellektual səviyyəyə malik olan Məmmədəli İsmayılov hər bir əsərində incə mətləbləri üzə çıxarmağı, öz sözünü rənglərin dili ilə deməyi bacarırdı. Onun vətənpərvərlik mövzusunda, o taylı-bu taylı Azərbaycanımız üçün həsr etdiyi "Həsrət" tablosu, əməksevərliyi təbliğ edən "Babaların yolu ilə" əsəri, gənclik duyğularını, hisslərini. arzularını özündə əks etdirən "Bahar" və s. tablolarında böyük fəlsəfi ideya yatır. İnsan yaşlandıqca doğulduğu torpağı, uşaqlıq xatirələrini, gənclik illərini tez-tez xatırlayır, həmin illərə qayıtmaq istəyir. Bakıda yaşadığı illərdə bəlkə də bu xatirələri yaşayaraq çoxsaylı maraqlı əsərlərə imza ata bilmişdi. Lakin onun sonuncu əsəri insanı daha çox düşündürür, insanı uzaqlara aparır. Rəssam sanki bunun son əsər olduğunu hiss etmişdi. Əsər elə bil ömrünün son günlərinin üsyanı idi. Bəlkə də təsvir etdiyi doğma torpaq – düzənlər, dağlar onun keçdiyi həyatın keşməkeşliyindən xəbər verirdi. Əsərdəki kəskin rəng çalarlarının təlatümü, isti və soyuq rənglərin bir-biri ilə savaşı hiss olunur. Digər əsərlərindəki kimi sakit, xoş lirika hiss olunmurdu. İşləmə texnikasında da sərtlik hiss olunur. Qalın və güclü rəng yaxmalarında sanki gənclik enerjisi hiss olunur. Lakin əsərin sol tərəfində bu mübarizədən fərqli olaraq bir sakitlik hökm sürür. "Həsrət" Sonsuzluq... Günəşin qürubu təsvir olunub. Sanki bu qürubda, bu sonsuzluğun sakit çalarında doğma torpaqdan – düzənlərdən təpələrdən, dağlardan göz işlədikcə uzanan, qüruba sonsuzluğa qovuşan rəssam ömrü təsvir olunub. Təpələrin sinəsində çiskin yatıb. Çiskindən aşağıda, uzaqda bir-birindən aralı iki tənha ağac təsvir olunub. Ön planda isə qollu-budaqlı üç ağac. Ağacların da rəngi qürübun rənginə uyğun olaraq qaraya çalan yaşıl rəngdə idi. Bu əsər digər əsərlərindəki kimi al-əlvan deyildi, burda rəngarənglik hökm sürmürdü... Atasının xatirəsini hər zaman əziz tutan, onun əsərlərini, ona aid bütün materialları xüsusi qaygı ilə qoruyub saxlayan rəssamın oğlu Sədi İsmayılovla atası İsmayılov Məmmədəli haqqında danışdıq. O, söhbətində: "Atam narahat idi. Sanki son anları olduğunu hiss edirdi. "Torpağın ətiri" əsərini istədi. Gətirdik. Uzun-uzadı baxdı". Naxçıvan təbiətinin nəğməkarı olan sənətkar doğma torpağa, sonsuzluğa uzanan həmin yollara sonuncu dəfə baxdı və gözlərini əbədi olaraq yumdu, bu dünyadan, sənətsevərlərdən cismən ayrıldı [1, s. 113].

Tanınmış rəssam ölkəmizdə, eləcə də ölkəmizdən kənarda keçirilən sərgilərdə mütəmadi iştirak etmişdi. Rəssamın 1970-ci ildə Naxçıvanda, 1990-cı ildə isə Bakı şəhərində fərdi sərgiləri

keçirilmişdir. Bakı şəhərində keçirilən sərgidə nümayış olunan 100-dən çox əsəri tamaşaçıların marağına, rəğbətinə səbəb olmuşdu. Rəssamın sonuncu rəsm sərgisi isə 2007-ci ildə Bakı şəhərində Vəcihə Səmədova adına sərgi salonunda olmuşdur. 2019-cu ildə isə rəssamın Naxçıvan Dövlət Rəsm Qalareyasında xatirə sərgisi keçirilmişdir. Xarici ölkələrdə - Yaponiya, Fransa, Almaniya, Rusiya, Ukrayna, Moldova, Türkmənistan, Özbəkistan, Gürcüstan, Türkiyə, İran və s. keçirilən qarışıq sərgilərdə (1986-2010) iştirak etmişdir [6]. Rəssamın xatirəsi hər zaman hörmətlə anılıb, bədii irsi özündən sonrakı rəssamlar üçün örnək olub. Əsərləri Almaniya, Yaponiya, Fransa, Ukrayna, Moldova, Türkmənistan, Özbəkistan, Gürcüstan, Türkiyə, İran kimi xarici ölkələrdə, Bakıda, Naxçıvan Dövlət Tarix Muzeyində, Naxçıvan Dövlət Rəsm Qalereyasında, Cəmşid Naxçıvanski Muzeyində, Kəngərli Rayon Tarix-Diyarşünaslıq Muzeyində və bir çox şəxsi kolleksiyalarda mühafizə olunur.

SSRİ Rəssamlar İttifaqının üzvü (1970) olan Məhəmmədəli İsmayılovun yaradıcılığı dövlətimiz tərəfindən də qiymətləndirilmiş, 1992-ci ildə Azərbaycan Respublikasının Əməkdar rəssam fəxri adına layiq görülmüşdür.

Azərbaycan Respublikasının Əməkdar rəssamı Məhəmmədəli İsmayılov 2010-cu ilin 21 avqustunda Bakı şəhərində əbədiyyətə qovuşmuşdur.

Yaratmaq həvəsi ilə yaşayan və yaratdığı hər bir əsərinə yaşamaq vəsiqəsi verməyə çalışan və çox zaman da işgüzarlığı, inadkarlığı, zəhmətsevərliyi sayəsində buna nail olan Məhəmmədəli İsmayılov bu gün böyük ustalıqla, məharətlə yaratdığı doğma torpağının vüqarlı dağlarında, al-əlvan təbiətinin qoynunda, güllü-çiçəkli çöllərində, bağlı-bağatlı bağçalarında, ən əsası isə onu tanıyanların qəlbində yaşayır. Rəssamın həyat və yaradıcılığı sənətşünaslar tərəfindən tədqiqata cəlb olunaraq məqalələr, kitablar, monoqrafiyalar hazırlanmaqdadır.

## ƏDƏBİYYAT

1. Allahverdiyeva H. “Torpaq ətri”– son əsər, son nəfəs. AMEA Naxçıvan Bölməsi. İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, Axtarışlar jurnalı, Naxçıvan: “Tusi” nəşriyyatı, 2020, №-4.
2. Naxçıvan. Naxçıvan: “Əcəmi”, 2010, 64 s. 82.
3. Naxçıvan teatrının salnaməsi. Naxçıvan: “Əcəmi” NPB, 2010, 736 s.
4. Rəhimli İ., Vəzirov C. Naxçıvan teatrı. Bakı: Aspoliqraf, 2008, 350 s.
5. https://edebiyyat-az.com Əliyeva M. Sənətində yaşayan rəssam. Edebiyyat-Az.Com 19.12.2016.
6. https://www.nrb.gov.az.

***AMEA Naxçivan Bölməsi***
***E-mail: aliqehreman@yahoo/com***

**Ali Gahramanov**

## HONOURED ARTIST MAMMADALI ISMAYILOV’S SCIENTIFIC AND THEORETICAL APPROACH TO THE WORLD OF COLORS

The article discusses the creative path of Mammadali Ismailov, one of the talented successors of the realist painter Bahruz Kangarli in the 20th centuru, Honored Artist of the Respublic. The performances in which he gave artistic settings to classial and modern works at the Nakhchivan Theater are followed
Inchronological order. It also discusses the landscapes and paintings that describe the mysterious beauty of our Motherland. At the same time, his successful participation in international exhibitions is reflected.

**Keywords:** *Mammadali Ismayilov, artist, theater, landscape, composition, portrait.*

**Али Гахраманов**

## НАУЧНО-ТЕОРЕТИЧЕСКИЙ ПОДХОД К МИРУ ЦВЕТОВ ЗАСЛУЖЕННОГО ХУДОЖНИКА МАМЕДАЛИ ИСМАИЛОВА

В статье рассматривается творческий путь Мамедали Исмаилова, одного из талантливых последователей художника-реалиста XX века Бахруза Кенгерли, заслуженного деятеля искусств республики. Постановки классических и современных произведений, которые он поставил в Нахчыванском театре, перечислены в хронологическом порядке. В книге также обсуждаютсся пейзажи и прекрасные картины, описывающие таинственную красоту нашей родины. В то же время это находит свое отражение в успешном участии в международных выставках.

**Ключевые слова**: *Мамедали Исмаилов, художник, театр, пейзаж, композиция, портрет.*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 16.07.2025**
**Son daxilolma tarixi:11.08.2025**